
AZƏRBAYCAN XƏBƏRLƏRİ

Bayraq günüdür

Noyabr 09, 2026



Bu bayrağı Rəsulzadə özü tikib

Noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günüdür.

2009-cu il noyabrın 17-də prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.

Üzərində aypara və səkkizguşəli ulduz təsvir olunan bu üçrəngli (göy, qırmızı, yaşıl) dövlət bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin iclasında qəbul edilib və 1920-ci il aprelin 28-nə kimi (Cümhuriyyətin süqutuna qədər) dövlət rəmzi statusuna malik olub. Azərbaycan keçmiş Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibində olduğu dövrdə isə respublikanın ayrı bayrağı olub.

1991-ci ildə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini bərpa edib. Həmin il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbul olunub.

Əmək Məcəlləsinin 105-ci maddəsinə edilən əlavəyə əsasən, Dövlət Bayrağı Günü qeyri-iş günü olan bayramların siyahısına daxil edilib.

2007-ci ildən etibarən Müstəqillik Günü (18 oktyabr) və Konstitusiya Günü (12 noyabr) isə iş günü elan olunub.

Beş il əvvəl Milli Məclis Müstəqillik Gününün adını dəyişərək Müstəqilliyin Bərpası Günü edib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur